

Azərbaycan musiqi tarixində iz buraxmış böyük bəstəkarlardan biri Arif Məlikov 13 sentyabr 1933-cü ildə Bakıda anadan olub. O, musiqi mədəniyyətimizin inkişafında mühüm rol oynayan əsərlər yaradıb və dünyada tanınıb. Sənətkar musiqi təhsilinə Azərbaycan Dövlət Konservatoriyasında başlayıb və Qara Qarayevin tələbəsi olub.

# Arif Məlikovun əsərləri: dramatizmin və lirizmin harmoniyası

Azərbaycanı dünyaya tanıdan Arif Məlikovun yaradıcılığı çoxşaxəlidir, lakin onun ən məşhur əsəri 1961-ci ildə yazdığı "Məhəbbət əfsanəsi" baletidir. Bu balet təkcə Azərbaycan musiqisinin deyil, həm də dünya balet sənətinin ən mühüm incilərindən biri kimi qiymətləndirilir. "Məhəbbət əfsanəsi" həm musiqi, həm də emosional ifadə baxımından zəngindir. Dünya səhnələrində geniş tamaşaçı auditoriyası tərəfindən sevilmiş "Məhəbbət əfsanəsi" haqqında dahi rus bəstəkarı Dmitri Şostakoviç yazıb: "Arif Məlikov istedadlı bəstəkardır, onun musiqisi əsl peşəkar musiqidir. Partituranın dərin musiqi dramaturgiyası, onun daxili inkişafı, qəhrəmanların musiqi səciyyələrinin dəqiqliyi və ifadəliyi, orkestrovkada nadir ustalıq, onun xüsusi rəngarəngliyi, çoxlu tapıntılar bu gözəl musiqi əsərini böyük maraqla dinləməyi məcbur edir".



Görkəmli bəstəkar Arif Məlikov Azərbaycan musiqi mədəniyyətinin dəyərli nümayəndələrindən biri kimi milli musiqi ənənələrinin qorunması və inkişaf etdirilməsində əvəzsiz xidmətlər göstərib, Qara Qarayevin bəstəkarlıq məktəbinin layiqli davamçısı kimi, onun irsini yeni yaradıcı istiqamətlərlə zənginləşdirib. A.Məlikovun hələ gənc yaşlarında müxtəlif janrlarda bəstələdiyi əsərlər Azərbaycan musiqi ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanıb və onun parlaq gələcəyindən xəbər verib. Bəstəkarın əsərləri, xüsusilə də "Məhəbbət əfsanəsi" baleti, Azərbaycan musiqi tarixində yeni səhifə açıb. Bu əsər musiqi tənqidçiləri və tamaşaçılar tərəfindən yüksək qiymətləndirilib, zəngin melodiyası və milli motivləri ilə dərin təsir yaradıb. A.Məlikov milli musiqi ruhunu dünyaya uğurla çatdırıb.

Bəstəkar Arif Məlikov "Məhəbbət əfsanəsi"ndən başqa "Ölümdən güclü" (1966), "Yer üzündə iki nəfər" (1969), "Əlibaba və qırx quldur" (1973), "İki ürək dastanı" (1981), "Yusif və Züleyxa" (1999) baletlərinin müəllifidir. O, həmçinin "Sehrli xalat", "Axırıncı aşırım", "Ulduzlar sönmür", "Qərib cinlər diyarında" filmlərinə də musiqi bəstələyib. Görkəmli bəstəkarın yaradıcılığı Azərbaycan musiqisinin çoxəsrlik ənənələri ilə müasir kompozisiya texnikasının uğurlu sintezidir. O, milli musiqinin rişələrindən bəhrələnərək simfoniya, balet, operetta, kantata, vokal, kamera və instrumental janrlarda yüksək professionallıqla yaratdığı əsərləri ilə Azərbaycan musiqi xəzinəsini zənginləşdirib. Bəstəkarın əsərləri milli musiqi irsimizin inciləri sırasında xüsusi yer tutur. Romansları və mahnıları tanınmış sənətkarların ifasında geniş populyarlıq qazanaraq musiqisevərlərin yaddaşında unudulmaz iz buraxıb. Arif Məlikovun əsərlərində Azərbaycan xalq musiqisinin motivləri və milli ruhu qabarıq şəkildə əks olunur. O, klassik musiqi ilə milli musiqi elementlərini ustalıqla sintez edərək unikal bir üslub yaradıb. A.Məlikovun əsərlərində melodiyanın incə işlənməsi, orkestrin zənginliyi və emosional dərinlik diqqəti çəkir. Onun musiqisində dramatizm ilə lirizm harmoniya təşkil edir.

Bəstəkarın yaradıcılığı təkcə baletlərlə məhdudlaşmır. O, həm də simfonik, kamera və vokal musiqi janrlarında da çoxsaylı əsərlər bəstələyib. Bəstəkarın simfonik poemaları, vokal-simfonik əsərləri və fortepiano üçün yazdığı musiqilər onun dərin yaradıcılıq palitrasını nümayiş etdirir.

Arif Məlikovun bəşəri dəyərləri və idealları əks etdirən əsərləri, Azərbaycanın hüdudlarından kənarda da yüksək qiymətləndirilib və bu gün də dünya səhnələrində uğurla səsləndirilir. Onun əsərləri, 20-dən çox ölkədə ifa olunub. Asiya, Avropa, Amerika qitələrində, Rusiya, ABŞ, Böyük Britaniya, Fransa, Yaponiya, Türkiyə, Gürcüstan və bir çox ölkələrdə alqış qazanıb. Sənətkar Azərbaycan xalqına və dünya musiqi mədəniyyətinə etdiyi töhfələrə görə "Azərbaycan SSR əməkdar incəsənət xadimi", "Azərbaycan SSR xalq artisti" fəxri adları, "Şərəf nişanı", "Şöhrət" və "İstiqlal" ordenləri, Azərbaycan SSR Dövlət mükafatı kimi bir çox mükafat və fəxri adlara layiq görülüb.

Bəstəkar Arif Məlikov 9 may 2019-cu ildə 86 yaşında vəfat edib və Fəxri xiyabanda dəfn edilib. Onun əsərlərindəki musiqi dilinin zənginliyi və ifadələrin gücü, həm yerli, həm də beynəlxalq auditoriyanın qəlbində dərin iz buraxıb. Arif Məlikovun musiqisi milli və müasir üslubları birləşdirərək, Azərbaycan mədəniyyətinin dünya miqyasında layiqli təmsilçisi olmuşdur.

**Nurcan SÜLEYMANOVA,**
**"Respublika".**

Respublika.- 2024.- 13 sentyabr (№ 199). - S.11.